**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MİNGƏÇEVİR AZƏRBAYCAN ALBANİYASININ ANTİK ŞƏHƏRİDİR

| | |
|---|---|
| İxtisas: | 5505.02 – Arxeologiya |
| Elm sahəsi: | Tarix |
| İddiaçı: | **Emin Vaqif oğlu Məmmədov** |

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**NAXÇIVAN – 2021**

Dissertasiya işi Milli Azərbaycan Tarixi Muzeyinin "Arxeologiya elmi fond" şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbərlər: **Arif Məhəmməd oğlu Məmmədov**
tarix elmləri doktoru, professor

**Zemfira Əli qızı Hacıyeva**
tarix elmləri doktoru, dosent

Rəsmi opponentlər: **Qüdrət Seyfulla oğlu İsmayılzadə**
tarix elmləri doktoru, professor

**Cavid Vəkil oğlu Bağırzadə**
tarix üzrə fəlsəfə doktoru, dosent

tarix üzrə fəlsəfə doktoru
**Əkbər Həsənqulu oğlu Bədəlov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının AMEA Naxçıvan Bölməsinin nəzdində fəaliyyət göstərən ED 1.13 Dissertasiya Şurası

Dissertasiya şurasının sədri: AMEA-nın həqiqi üzvü
____________ **İsmayıl Muxtar oğlu Hacıyev**

Dissertasiya şurasının elmi katibi: Tarix üzrə fəlsəfə doktoru, dosent
____________ **Emin Arif oğlu Şıxəliyev**

Elmi seminarın sədri: AMEA-nın müxbir üzvü
____________ **Vəli Baxşəli oğlu Baxşəliyev**

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Müasir Azərbaycan tarixşünaslığında xüsusi yer tutan, eyni zamanda aktuallığı ilə seçilən problemlərdən biri Azərbaycanın qədim dövləti olan Azərbaycan Albaniyasının tarixinin öyrənilməsidir. Azərbaycan ərazisində ta qədimdən ümumi mədəni ənənələrə, eyni psixoloji xüsusiyyətlərə, sosial-iqtisadi ənənələrə malik olan, yəni etnik bütövlüyü ilə seçilən Azərbaycan Albaniyası xalqımızın vətənidir.

Albaniya tarixi Azərbaycanın ümumi tarixinin bir parçasıdır. Məhz buna görə də, bu növ tədqiqatlar Azərbaycanın siyasi və sosial-iqtisadi tarixi üçün olduqca əhəmiyyətlidir. Son illərdə Azərbaycanın dövlət suverenliyinin bərpasından sonra tariximizin inkişaf yoluna obyektiv nəzər salınması üçün şərait yaradılmış, Azərbaycan Albaniyası tarixinin müəmmalı məsələlərini yenidən araşdırmaq imkanı əldə edilmişdir. Bu baxımdan əvvəllər Azərbaycan tarixşünaslığında xüsusi yer tutan, lakin hakim olan sovet ideologiyanın qərəzli tələbləri üzündən yasaqlanan, hər vəchlə ört-basdır edilən, yaxud da təhrif olunan mövzuları işləmək imkanı yaradılmışdır.

Müasir Azərbaycan tarixşünaslığının ən aktual vəzifələrdən biri də aşkara çıxarılan və çoxsaylı nadir arxeoloji artefaktlarla zəngin olan maddi mədəniyyət abidələrinə istinadən Azərbaycanın əzəli qərb və şimal-qərb torpaqlarının tarixinin öyrənilməsidir.

Antik Mingəçevir (Samunida) şəhərinin maddi mədəniyyət abidələrinin öyrənilməsi dissertasiya işinin aktuallığını təşkil edir. Albanşünaslığa töhfə verəcək dissertasiya işində bir sıra problemlərin həllinə cəhdlər edilmişdir. Azərbaycan tarixşünaslığında Mingəçevirin antik dövr tarixinin öyrənilməsində xeyli çatışmazlıqlar mövcuddur. Məhz bunlar dissertasiya mövzusunun tədqiqini daha da aktual və zəruri edir.

1946-1953-cü illərdə bütün Qafqazın ən iri su elektrik stansiyasının inşası səbəbi ilə Mingəçevir bölgəsində aparılmış arxeoloji qazıntılar

Azərbaycan elminin müstəsna hadisəsinə çevrilmişdir. Qazıntılar zamanı qədim yunan xəritəçisi və coğrafiyaşünası Klavdi Ptolemeyin adını ilk dəfə çəkdiyi 29 antik şəhərdən biri olan Samunida tapılmışdır.

Qeyd edilməlidir ki, antik Samunida şəhərinin yerləşməsini araşdırarkən ölkəmizin bir çox tədqiqatçıları – C.Xəlilov, İ.Babayev, F.Osmanov, S.Vəliyev, Q.Qoşqarlı və başqaları bu şəhərin adını “Samunis” şəklində qeyd etmişlər. Lakin dissertasiya işinin müəllifi bir çox antik mənbələrə və arxiv materiallarına əsaslanaraq ilk dəfə bu məntəqənin yunan dilində məhz “Samunida” kimi səsləndiyini müəyyənləşdirmişdir.

Tədqiqat işində antik Mingəçevir (Samunida) şəhərinin Azərbaycanın hazırkı Samux rayonunda eyniadlı müasir şəhərin yaxınlığında, İkinci Dünya müharibəsi bitdikdən sonra - 1946-1953-cü illərdə Kür çayında su elektrik stansiyasının tikintisindən sonra yaradılmış su anbarına bitişik yerdə yerləşdiyi xüsusi qeyd edilmişdir.

Təəssüf ki, 1946-1953-cü illərdə Mingəçevir ərazisində üzə çıxarılan zəngin arxeoloji materiallar elmi tədqiqatlarda Azərbaycan Albaniyasının maddi və mənəvi mədəniyyət tarixinin xeyli məsələsini sübuta yetirmək məqsədilə geniş istifadə edilsə də, antik Mingəçevir (Samunida) şəhərinin öz tarixi, təşəkkülü mərhələləri və onun Azərbaycan Albaniyasının başqa qədim şəhərləri arasında mövqeyi ayrıca araşdırma obyektinə çevrilməmişdir.

Azərbaycan Albaniyasının arxeoloji qazıntılar müstəvisində ən yaxşı tədqiq edilmiş şəhərlərindən biri olsa da, Mingəçevirdə aşkarlanan çoxsaylı nadir arxeoloji materiallar elmi ədəbiyyatda kifayət qədər təsvir edilməmiş və öyrənilməmişdir. Burada aparılmış qazıntı işlərini Azərbaycan Albaniyasının başqa qədim şəhərləri – Qəbələ, Şamaxı, Dərbənd, həmçinin Gürcüstanın Msxeti şəhərində və s. məntəqələrdəki qazıntılarla müqayisə etmək olar. Tədqiqatçılar həmin şəhərlərdə aşkarlanan tapıntılar əsasında oradakı ictimai-iqtisadi və mədəni həyatın inkişafı, istehsalı, habelə onların digər şəhərlərlə ticarət və iqtisadi əlaqələrin araşdırıblar. Lakin antik Mingəçevir (Samunida) xeyli arxeoloji materiallara malik olsa da, elmi araşdırma baxımından kölgədə

qalmış və lazımi səviyyədə tədqiq edilməmişdir.

Mingəçevirdə uzun illər ərzində aparılmış qazıntılar zamanı əldə edilən, həmçinin şəhər yerində və onun məzarlıqlarında tapılan arxeoloji materiallar hazırda Milli Azərbaycan Tarixi Muzeyinin fondlarında qorunub saxlanılır. Bütün bunların tədqiqi Azərbaycan Albaniyasının ən mühüm antik şəhərlərindən birinin yaranması, təşəkkülü və inkişafının tarixi əhəmiyyətini bərpa etməyə imkan verir. Mingəçevirdə aparılmış qazıntılar zamanı aşkarlanmış arxeoloji materialların xüsusiyyətlərindən biri də onların sırasında antik dövrdə buraya gətirilmiş xeyli əşyaların olmasıdır.

Antik Mingəçevir şəhəri Azərbaycan Albaniyası dövründə ən iri ticarət və sənətkarlıq mərkəzlərindən biri olmuşdur. Bu şəhər beynəlxalq su və karvan ticarət yollarının kəsişməsində yerləşir və şübhəsiz ki, qədim Azərbaycanın Şərqin aparıcı şəhərləri və dövlətləri ilə ticarət əlaqələrində ən mühüm yeri tuturdu. Çoxsaylı və nadir arxeoloji artefaktlar əsasında bu şəhərin çiçəklənmə dövrünün iki zaman mərhələsinin astanasında – antik dövrün sonu ilk orta əsrlərin əvvəlinə aid etmək mümkündür. Həmin dövrdə Mingəçevir çox böyüdüyünə görə, şəhərin bir hissəsi Kür çayının sol sahilinə yayılmışdır. Beləliklə, mövzunun aktuallığı Azərbaycan Albaniyasının təşəkkülü tarixində mühüm rol oynamış aparıcı antik şəhərlərdən biri olan Mingəçevirin hərtərəfli arxeoloji tədqiqinin zərurətindən irəli gəlir.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiya işinin tədqiqat obyektini Azərbaycan Albaniyasının antik şəhəri Mingəçevirdə olan qədim məskənlər, məzarlıqlar, istehkamlar, şəhər tikililəri, habelə arxeoloji qazıntılar zamanı orada aşkar olunan maddi mədəniyyət qalıqları və s. təşkil edir.

E.ə. IV – b.e. IV əsrlərində Azərbaycan Albaniyasının tərkibində olan Mingəçevir şəhərindəki mədəni abidələrin yerləşmə mövqeyini müəyyənləşdirərək xəritə tərtib etmək, ərazidə aşkarlanan arxeoloji materialları tədqiq edərək maddi mədəniyyət haqqında ümumi təsəvvür yaratmaq, təsərrüfat həyatı, sənətkarlıq, ticarət və başqa fəaliyyət

sahələrini öyrənmək dissertasiyanın predmetini təşkil edir.

Dissertasiya işində faktiki və nəzəri material olaraq Milli Azərbaycan Tarixi Muzeyi, habelə AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu, AMEA Rəyasət Heyəti nəzdində Elmi İrs Mərkəzi, respublikamızın diyarşünaslıq muzeyləri, Gürcüstan Milli Tarix Muzeyi və Rusiya Federasiyası Dövlət Tarix Muzeyinin arxiv və fondlarında qorunub saxlanılan çoxsaylı arxeoloji tapıntılar, dərc olunmuş və olunmamış arxiv materiallarına (arxeoloji ekspedisiya iştirakçılarının əlyazma və hesabatları, çöl işləri barədə jurnalları, gündəlikləri, çəkdiyi fotoşəkillər) istinad edilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin əsas məqsədi Azərbaycan Albaniyasının antik şəhəri olan Mingəçevirin öyrənilməsi ilə bağlı olan bütün aspektləri əhatəli tədqiq etməkdir. Qədim yunan coğrafiyaşünası və xəritəçisi Klavdi Ptolemeyin Azərbaycan Albaniyasında olan 29 şəhər sırasında ən inkişaf etmiş məntəqə olaraq qeyd etdiyi ulu Mingəçevirin (Samunida) əhəmiyyətini müəyyənləşdirmək məqsədi ilə geniş məxəzlər toplusu, çoxsaylı arxeoloji materiallar və elmi ədəbiyyatı ümumiləşdirmək tədqiqat işinin vəzifələrindəndir.

Məhz təqdim edilən tədqiqat işində Kür çayının hər iki sahilində meydana gələn Azərbaycan Albaniyası dövlətinin təşəkkülünün müxtəlif məqamları ilə bağlı olan mürəkkəb proseslərin bütöv mənzərəsi yaradılmağa çalışılmışdır. Bu məqsədə çatmaq üçün dissertasiya işində aşağıdakı konkret məsələlərin həllinə cəhd göstərilmişdir:

- qədim Mingəçevirin antik dövrdən başlayaraq ilk orta əsrlərin əvvəllərinədək xronoloji çərçivəsini əhatə edən tarixi icmalını vermək;
- Azərbaycan Albaniyasının antik şəhəri olan Samunidanın hazırkı Mingəçevir su elektrik stansiyası ərazisində yerləşdiyi ilə əlaqədar prosesləri nəzərdən keçirmək;
- şəhər mədəniyyətinin əsas elementlərini, ona xas quruluşu göstərmək;
- antik Mingəçevir (Samunida) şəhəri ərazisindəki müxtəlif səpkili dəfn yerlərini əlaqələndirmək və təsərrüfatın inkişafını göstərmək;

- antik Mingəçevirin məişəti, adətləri, maddi və mənəvi mədəniyyətinin müxtəlif aspektlərini təsvir etmək;

- Milli Azərbaycan Tarixi Muzeyindəki arxeoloji materiallar əsasında Mingəçevirin antik dövrə dair sosial-iqtisadi və siyasi həyatından bəhs etmək.

Təqdim olunan dissertasiya işi həm də milli tarixşünaslığımızda antik Mingəçevir (Samunida) şəhərinin öyrənilməsində mövcud olan çatışmamazlıqları aradan qaldırılmağa xidmət edir.

**Tədqiqatın metodları.** Tədqiqat materiallarının hərtərəfli şəkildə araşdırılmasını nəzərdə tutan tipoloji və analitik təhlil üsuluna əsaslanaraq işlənilmiş dissertasiya işində başlıca prinsip - arxiv materialları və dərc olunmuş məlumatları müqayisə edərək ciddi tənqidi təhlil etməkdir.

Müqayisəli analiz və əsas məlumatların sintezi əsasında tərtib edilmiş dissertasiyada metodoloji üsullara əsasən müasir arxeoloji və tarixi sistemləşdirilmə edilmişdir. İşdə arxeoloji materialların iki dövr astanasındakı təşəkkülü və dəyişikliyi müşahidə edilərək xronoloji ardıcıllıq prinsipi və tipoloji təhlildən geniş istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Tədqiqatın məqsəd və vəzifələri aşağıdakılardır:

- Antik dövrdən ilk orta əsrlərin əvvəllərinədək olan xronoloji çərçivə daxilində Mingəçevir şəhərinin Azərbaycanın qədim şəhərlərindən biri olduğunu müəyyən etmək;

- Azərbaycan Albaniyasının antik şəhəri olan Samunidanın hazırkı Mingəçevir su elektrik stansiyası bölgəsində yerləşməsini və şəhərləşmə prosesini izləmək;

- Şəhər mədəniyyətinin əsas elementləri və quruluşunu göstərmək;

- Antik Mingəçevir (Samunida) şəhəri ərazisindəki müxtəlif nekropollar barədə məlumat vermək;

- Antik Mingəçevirin gündəlik məişəti, adətləri, maddi və mənəvi mədəniyyətinin müxtəlif aspektlərini arxeoloji materiallar əsasında təqdim etmək.

**Tədqiqatın elmi yeniliyi**. Dissertasiya işində Mingəçevir tarixinin öyrənilmə məsələsinə, yenidən nəzər salınaraq, xüsusilə ən inkişaf edilmiş məntəqə olan qədim Samunidanın həyatına nəzər salınaraq minilliklər ərzində Kür çayının hər iki sahilində təşəkkül tapmış maddi və mənəvi mədəniyyətinin ümumi mənzərəsi haqqında məlumatların verilməsinə cəhd edilmişdir.

İddiaçının fikrincə, ən qədim abidələr sağ sahil məntəqələrində mövcud olmuş və bu ərazidə çoxtəbəqəli yaşayış yerləri qeydə alınmışdır. Müəllif ilk dəfə olaraq Mingəçevirdə 1946-1953-ci illərdə aparılmış arxeoloji qazıntıların hesabatlarına istinadən elmi faktlar təqdim etmişdir.

Dissertasiya işində antik dövrdən ilk orta əsrlərin əvvəllərinədək Azərbaycan Albaniyasında tikililərin yüksək yerlərdə taxta dirəklər üzərində qurulduğu, inşaatda bişmiş gilli çiy kərpiclərdən istifadə olunduğu, bəzi binaların damlarına müxtəlif formalı və şəkilli kirəmitlərin qoyulduğu müəyyən edilmişdir. Bu cür tikinti materialları Aralıq dənizi hövzəsinin ellin dövlətləri və Azərbaycan Albaniyası ilə qonşu ölkələrinin binalarında istifadə olunan materiallarla eyniyyət təşkil edir.

Tədqiqat zamanı həm də Kür çayının sağ sahilində göstərilən dövrdə mövcud olan bu şəhərin surətli inkişafının sol sahilin inkişafına təsiri də qeyd edilmişdir. Burada eramızın I - IV əsrlərində yeni şəhər məhəllələri yaranmağa və bununla bərabər məzarlıqlar əmələ gəlməyə başlamışdır. Müxtəlif materiallarla zəngin olan sol sahildə arxeoloji qazıntılar zamanı aşkarlanan tikinti qalıqları bu fikri təsdiqləyir. Tarixi və arxeoloji ədəbiyyatda bu ərazilər uzun müddət ayrı-ayrı məskənlər kimi qələmə verilirdi, lakin müəllifin apardığı tədqiqatlar onları qədim şəhərlərə məxsus olan, dövrünün vahid "meqapolis"i olduğunu qeyd etməyə imkan verir. Bütün bu yeni məlumatlar antik Mingəçevirin həyatı və fəaliyyəti, onun əsrlər boyu müxtəlif vaxtlarda meydana gələn təsərrüfat, məişət, dini və dəfn abidələrinin ümumi mənzərəsini canlandırmağa şərait yaradır. Üstəlik, dissertasiya işinin müəllifi ilk dəfə olaraq

qədim Mingəçevirin daş dövrünə aid ən erkən abidələrini üzə çıxarmışdır.

İşdə həmçinin qədim Samunida qalıqları üzərində ilk orta əsrlərdə Şəhərburun adlı şəhərciyin meydana gələrək inkişaf etdiyi də elmi yenilik olaraq təqdim edilmiş, bununla da müvafiq dövrdə Azərbaycan xalqının tarixinə dair bir çox maraqlı ümumiləşdirmələr və qənaətlər əldə edilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat işinin nəticələrindən Azərbaycan tarixinə dair tarixşünaslıq əsərlərinin yazılmasında, arxeologiya və tarixi diyarşünaslıq kurslarında dərs vəsaiti qismində, habelə təcrübi işlərin təşkilində və diplom işlərinin yazılmasında, muzeylərin və təhsil müəssisələrinin, Azərbaycanın mədəni irsini mühafizə edən dövlət qurumlarının işində, dövlət abidələr siyahısının hazırlanmasında, həmçinin bölgənin arxeoloji xəritəsinin tərtibi zamanı istifadə edilə bilər.

**Dissertasiyanın aprobasiyası və tətbiqi.** Dissertasiya işinin əsas müddəaları və nəticələri müəllifin müxtəlif elmi toplularda dərc olunan bir çox elmi məqaləsində əksini tapmış, Qəbələ (2012), Moskva (2013, 2014, 2015), Mingəçevirdə (2016), Astana (2019), Kiyev (2019) və Tbilisidə (2019) keçirilmiş beynəlxalq elmi konfranslarda etdiyi məruzələrdə yer almışdır.

**Dissertasiya işinin yerinə yetirldiyi təşkilatın adı**. Dissertasiya işi Milli Azərbaycan Tarixi Muzeyinin “Arxeologiya” elmi fond şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiyanın quruluşu və həcmi.** Dissertasiya işi giriş, dörd fəsil, nəticə, ədəbiyyat siyahısı, ixtisarlar və əlavələrdən ibarətdir. İşdə 282 ədəbiyyatdan, 35 əlavədən istifadə edilmişdir. Dissertasiyanın girişi 12.856, birinci fəsli 43.067, ikinci fəsli 29.419, üçüncü fəsli 75.646, dördüncü fəsli 92.935, nəticə 13.555 işarədən ibarətdir. Dissertasiya işi ümumilikdə 269.899 işarədən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiya işinə “Giriş”, dörd fəsil, “Nəticə”, istifadə olunmuş ədəbiyyat və ixtisarlar siyahıları, xəritələr, sxemlər, fotoşəkillər, cədvəllər və qrafik təsvirlərdən ibarət “Əlavələr” bölməsi daxildir.

“Giriş”də işin aktuallığı əsaslandırılmış, xronoloji çərçivəsi göstərilmiş, mənbəəşünaslıq bazası, problemin öyrənilmə dərəcəsi, tədqiqat obyekti, məqsəd və vəzifələri, elmi yeniliyi müəyyənləşdirilmiş, nəzəri və metodoloji əsasları təhlil edilmiş, praktiki əhəmiyyəti, aprobasiyası, quruluşu haqqında məlumat verilmişdir.

İşin **“Mingəçevir və Samunida antik şəhəri ərazisinin tədqiqi tarixi”** adlı birinci fəsli arxeoloji qazıntılar, o cümlədən Azərbaycanın dağ və çöl bölgələrinin kəsişməsində, Kür çayının sağ və sol sahillərindəki şəhər tikililərinin qalıqları əsasında antik Mingəçevir (Samunida) şəhərinin yerləşməsinə həsr olunmuşdur.

Birinci fəsil altı paraqrafdan ibarətdir. Birinci fəslin **“Mingəçevir ərazisinin coğrafi səciyyəsi”** adlı birinci paraqrafında peyk vasitəsilə alınan coğrafi koordinatlar və arxeoloji göstəricilər əsasında qədim Mingəçevir şəhər yerinin yerləşməsinə dair qənaətlər təqdim edilmişdir. Bu paraqrafda Bozdağ, Samux vadisi, həmçinin Mingəçevirin mühüm geoloji nöqtələrinə istinadən, XX əsrin 40-50-ci illərində su anbarının tikilməsindən əvvəl Mingəçevirdən şimalda olan qədim şəhər yerinin dağlıq hissəsində həm bərk cinsli, həm də yabanı meyvə ağaclarının bitdiyi sıx meşəliklə örtülməsi qeyd edilmişdir.

Paraqrafın sonunda antik Mingəçevir – Samunida şəhərinin yerinin təsadüfən seçilmədiyi, Bozdağın çox əyri, bəzən keçilməz yamacları ilə qorunduğu və əlverişli mövqedə yerləşdiyi, lakin qədim şəhər məskənlərinin coğrafi cəhətdən əlçatmaz olduğu qənaətinə gəlinmişdir.

Birinci fəslin **“Antik mənbələrdə Azərbaycan Albaniyası və Mingəçevirin tarixi”** adlı ikinci paraqrafında Strabon, Tit Livi (e. I əsri), İosif Flavi (e. I əsri), Pomponi Melan (e. I əsri), Böyük Plini (e. I əsri), Korneli Tasit (e. I-II əsrləri), Klavdi Ptolomey (e. I-II əsrləri), Plutarx (e.

II əsri), Dion Kassi Kokkenan (e. II əsri), Klavdi Elian (e. II-III əsrləri), Arrianın (e. I-II əsrləri) və başqa antik tədqiqatçıların xəbərlərinə, habelə aparıcı albanşünas alimlərin əsərlərinə istinadən qədim Mingəçevirə dair məlumat verilmişdir.

1946-1953-cu illərdə Mingəçevir ətrafında tapılan və hazırda Milli Azərbaycan Tarixi Muzeyinin fondlarında, habelə AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun Arxeologiya fondunda mühafizə edilən qədim Samunida şəhərinə bu və ya digər dərəcədə aid olan arxeoloji materiallar sübut edir ki, artıq ellinizm dövrünün əvvəlində - e.ə. III əsrdən başlayaraq Mingəçevirdəki qədim yaşayış yeri şəhər statusu almışdır.

Birinci fəslin **"XIX əsr elmi ədəbiyyatında qədim Azərbaycan Albaniya və Mingəçevir antik şəhəri barədə məlumatlar"** adlı üçüncü paraqrafında görkəmli alimlər F.Kruze, A.Yanovski, A.Berje, J.De Morqan, E.Resler və İ.Seqalın əsərləri əsasında XIX əsrdə Azərbaycan Albaniyasının tarixi və mədəniyyəti barədə məlumatlar təqdim edilmişdir.

Abbasqulu ağa Bakıxanov qədim dövrlərdən başlayaraq 1813-cü ilədək Qafqaz Albaniyası tarixinin bəzi məqamlarını Azərbaycan tarixi çərçivəsində üzə çıxarma cəhdləri etmişdir. A.Bakıxanov çoxsaylı məxəzləri – antik və orta əsr müəlliflərinin yazılarını, həmçinin maddi mədəniyyət abidələrini, toponimiya, numizmatika və epiqrafikanın məlumatlarını tədqiq edərək, "Gülüstani-İrəm" adlı tarix əsərini ərsəyə gətirmişdir. Yazılı qaynaqlardakı məlumatlar və aşkarlanan əşyavi tapıntılar qədim Azərbaycan ərazisindəki maddi və mənəvi mədəniyyət nümunələrinin öyrənilməsinə müəyyən maraq oyatmışdır.

Müəllifin təbirincə desək, "obyektiv səbəblərə görə, tədqiqatçılar başlıca olaraq tunc və ilk dəmir dövrü abidələrini, əsasən də, dəfn yerlərini öyrənmiş, lakin antik məskənləri, üstəlik, şəhərləri, demək olar ki, nəzərdən kənarda qoymuşlar".

Birinci fəslin **"Qədim Mingəçevir şəhəri toponiminin yozumu"** adlı dördüncü paraqrafında Mingəçevirin su və karvan yollarının

kəsişməsində, Böyük İpək Yolunun istiqamətlərindən birinin üzərində yerləşən iri ticarət qovşağı olduğu bildirilmişdir. Bundan savayı, bir çox tədqiqatçıların (Ö.Çələbi, Z.Toqan, B. əl-Cauzi, S.Qazıyev, Y.Paxomov, Q.İ.İone, T.İ.Qolubkina, K.Trever, R.Vahidov, Q.Aslanov, Z.Bünyadov və b.) əsərlərində qədim Mingəçevir toponiminin mənasının açılmasına cəhd göstərilmiş və həmin problemin gələcəkdə də araşdırılmasının vacibliyi qeyd edilmişdir.

Birinci fəslin **"1935-1953-cü illərdə qədim Mingəçevir ərazisində, Kür çayının hər iki sahilində aparılmış arxeoloji tədqiqatlar"** adlı beşinci paraqrafında qeyd edilir ki**,** qədim Mingəçevirdə planlı arxeoloji tədqiqatlar XX əsrin 20-ci illərində Azərbaycanın Tədqiq və Tətəbbö Cəmiyyəti (1923-1928), Arxeologiya Komitəsi (1925-1929), Azərbaycan Dövlət Elmi Tədqiqat İnstitutu (1929-1932), SSRİ EA Azərbaycan filialı (1932-1935), Azərbaycan EA-nın (1945) dəstəyi sayəsində başlamışdır.[1]

Müəllifin qənaətinə əsasən, 1935-1941-ci və 1946-1953-cü illərdə aparılan arxeoloji qazıntılar qədim dövrdən son orta əsrlərə qədər Mingəçevirdə maddi və mənəvi mədəniyyət davamlı olaraq inkişaf etmişdir.

Birinci fəslin **"XX əsrin II yarısında – XXI əsrin əvvəllərində qədim Mingəçevirə dair tarixi-arxeoloji ədəbiyyat"** adlı altıncı paraqrafında bu antik şəhərin arxeoloji nöqteyi-nəzərdən öyrənilməsinə xüsusi töhfə vermiş tarixçi, arxeoloq, etnoqraf alimlərin və başqa mütəxəssislərin əsərləri müxtəsər şərhlərlə təqdim edilmişdir.

Antik Mingəçevir şəhərinin maddi və mənəvi mədəniyyətinin öyrənilməsinin tarixi-arxeoloji bazası XX əsrin ikinci yarısında – XXI əsrin əvvəlləri ilə məhdudlaşmır. Mingəçevir arxeoloji materialının konkret məsələlərinə və onun müəyyən qruplarının təhlilinə bir çox monoqrafiyalar və elmi məqalələr həsr olunmuşdur. Həmin mətləblər Y.A.Paxomov, İ.M.Cəfərzadə, S.M.Qazıyev, O.Ş.İsmizadə, R.M.Vahidov, Q.M.Aslanov, C.Ə.Xəlilov, Q.İ.İone, T.İ.Qolubkina, Ş.Q.Sadıqzadə, K,Q.Əliyev, İ.Q.Əliyev, F.P.Osmanov, İ.A.Babayev, Q.O.Qoşqarlının

[1]Гаджиева З. Азербайджанский Государственный музей. История развития науки Азербайджана (1920-1960). З.Гаджиева. – Баку: – 2012. – с. 38-42.

elmi əsərlərində əksini tapmışdır. İddiaçının fikrincə, bu əsərlərdə məxsusi olaraq Mingəçevir (Samunida) şəhərinin meydana gəlməsi və yerləşməsi məsələləri az öyrənilmiş və şəhər haqqında deyilən bəzi fikirlər mübahisə doğurur.

**“Antik Mingəçevirin şəhər mədəniyyətinin əsas elementləri”** adlı ikinci fəsildə Mingəçevirin ayrı-ayrı zamanda meydana gələn arxeoloji abidələrinin quruluşu barədə məlumatlar təqdim edilmişdir. Belə materialları təhlil edən müəllif maddi mədəniyyətin qədim zamanədən XVIII əsrədək vahid inkişaf xəttini nəzərdən keçirmişdir. Bu fəsil beş paraqrafdan ibarətdir.

**“Qəsəbə ilə şəhərin fərqi”** adlı birinci paraqrafda şəhərin əsas elementləri, əhalisinin təsərrüfat fəaliyyətinin növləri araşdırılmışdır. Yazılı mənbələr, həmçinin arxeoloji qazıntılar nəticəsində Mingəçevir bölgəsində üzə çıxarılan yaşayış evləri, dəfn yerləri, tikinti materialları, aşkar olunan məişət və bəzək əşyaları, sikkələr və s. tapıntılar bu bölmədə nəzərdən keçirilmişdir. Belə faktlar bu ərazidə bir çox şəhər tipli qədim məskənlərinin mövcudluğunu deməyə imkan yaradır.

Ərazidə aşkarlanan idxal olunmuş mallar isə ticarət əlaqələrindən və ellinizm dünyası ilə mədəni ünsiyyətdən xəbər verir. Milli Azərbaycan Tarixi Muzeyinin fondlarında Mingəçevirdə aşkar olunan inşaat materialları mühafizə olunur. Bu əşyalar əsasında antik şəhərlər və onların mədəniyyətinin elmi təhlili aparılmışdır. Məhz belə artefaktlar şəhərin quruluş planını yeni tərzdə bərpa etməyə və qədim evlərin görünüşünü Azərbaycan Albaniyasının Qəbələ, Şamaxı, İsmayıllı və başqa antik şəhərlərinin binaları ilə mümkün qədər eyniləşdirməyə imkan verir.

**“Tikinti materiallarının qalıqları: kirəmit və kərpic”** adlı ikinci paraqrafda inşaat işlərində tikinti keramikası, başlıca olaraq dam, kalipter, novalça kirəmit, qismən bişmiş kərpicdən istifadədən bəhs edilir. Əldə olunmuş arxeoloji materiallar Mingəçevirdə yüksək inşaat texnikası və mədəniyyətin olduğunu xəbər verir.

Mingəçevir bölgəsinin digər tikinti materialları arasında az yoğrulan,

bişmiş gildən hazırlanmış sal parçalar xüsusi yer tutur. Bu tapıntılar Azərbaycan Albaniyasının antik şəhər və məskənləri - Qəbələ, Bərdə, Xınıslı, Qaracəmirli, Mollaisaqlı, Qalatəpə, Mil çölü və Arran, Qarabağ, Şəmkir, Ağcabədi rayonu və Şənlik Töyrətəpə kəndində, habelə Dağıstanda aşkarlanan oxşar material və binalarla müqayisəli tədqiqat aparmaq üçün dəyərli maddi-mədəniyyət nümunələridir.

**"İnşaat materialları"** adlı üçüncü paraqrafda arxeoloji qazıntılar zamanı aşkar olunan çoxsaylı tikinti materialları tədqiq edilmişdir. Müxtəlif təyinatlı binalar (ev, məbəd, qala divarları və bürcləri) inşasından xəbər verən belə tapıntılardan əlavə bu bölmədə həm də müdafiə tikililərinin mövcudluğuna dəlalət edən sədd izləri də araşdırılmışdır.

**"Antik Mingəçevirin ərazisində tikili növləri"** adlı dördüncü paraqrafda qədim Mingəçevir şəhər yerində müxtəlif vaxtlarda meydana gələn dörd yaşayış məntəqəsi hərtərəfli öyrənilmişdir.

Bu paraqrafda Kür çayının sağ sahilində aşkarlanan 1 və 4 saylı iki məntəqələrin daş dövründən eramızın II əsrinədək, Kür çayının sol sahilində eyni vaxtda mövcud olmuş 2 və 3 saylı məntəqələrin isə eramızın II əsrindən XVIII əsrədək bir dövrü əhatə etdiyi qənaətinə gəlinmişdir. Bu bölməyə həmçinin məzar abidələri (küp, torpaq və taxtaqutu qəbirləri), müxtəlif kürələr barədə məlumatlar da daxil edilmişdir.

Bir neçə mədəni təbəqə və layların aşkar olunduğu Sudağılan yaşayış yerinin tədqiq və təhlil edildiyi bu bölmədə erkən təbəqələrin yer səthindən 3 metr, daha sonrakıların isə 1,5-2 metr dərinlikdə aşkar olunduğu xüsusi vurğulanmışdır.

**"Kürələrin tipləri və onların təsnifatı"** adlı beşinci paraqrafda qədim Mingəçevirin Kür çayının hər iki sahilində aşkar olunmuş beş növ kürələri sırasında antik dövrə aid üç növ soba tədqiq edilmişdir. Bu paraqrafda qeyd edilir ki, "dulusçular kürələrini yalnız müəyyən yerlərdə qurmaq göstərişi alırdılar və dövlət həmin sobaların düzəldilməsinə nəzarət edirdi". Bütün bu faktlar qeyd edilən ərazidə yaşayış və ictimai bina-

ların, məbədlərin inşasını tənzimləyən şəhərsalma sisteminin mövcudluğunu düşünməyə əsas verir.

Yuxarıda sadalanan faktlar e.ə. IV – e. IV əsrləri ərzində Mingəçevir ətrafındakı ərazidə şəhər sakinlərinin gündəlik həyatına xas bütün mədəniyyət elementlərinin mövcudluğuna dair nəticə çıxarmağa imkan verir.

Üçüncü fəsil **“Antik Mingəçevirin nekropolları və onların müxtəlif tipləri”** adlanır. Dəfn yerləri cəmiyyət həyatının tədqiqində ən mühüm əşyavi tapıntılardır. Məzarlar şəhər həyatının, habelə əvvəlki ənənəvi qəbirlərdən yabançı dəfn üsullarına mədəni keçid prosesinin müşahidə olunduğu dəfn ayinlərinin təşəkkülü və inkişafının əyani göstəriciləridir.

Bu fəsil 4 paraqrafdan ibarətdir. **“Torpaq qəbirlər”** adlı birinci paraqrafda 1935-1953-cü illərdə Mingəçevir ətrafında tapılan çoxsaylı qəbir abidələri, o cümlədən müxtəlif vaxtlara aid 10 növ məzarlıqlar nəzərdən keçirilmişdir. Bu qədər növ fərqliliyi həmin ərazidə əsrlər boyu yerli əhali ilə yanaşı onun maddi və mənəvi mədəniyyətinə təsir göstərmiş bir çox etnik qrupların yaşaması ilə izah olunur.

Erkən dəfn növlərindən biri torpaq qəbirlərdir. Mingəçevirin ərazisində 200-dən çox belə qəbir aşkarlanmışdır.[2] Quruluşuna görə, Mingəçevirin torpaq qəbirlərinin bir neçə növü var.

Birincilər - üzərinə yastı sal daşların qoyulduğu, yaxud qoyulmadığı dördkünc və ya oval formalı torpaq çalalardır. Onların dərinliyi 0,8-2,5 m arasında dəyişir. Həmin növ qəbirlər Qafqaz Albaniyasının mərkəzi bölgəsi üçün də səciyyəvidir.

Dördkünc yastı sal daşlarla örtülmüş torpaq çalası şəklindəki digər qəbir növü Böyük Qafqaz dağlarının cənub yamaclarında, Azərbaycan, Qafqaz Albaniyası və Dağıstanın sahilyanı yerlərində aşkarlanmış və tədqiq edilmişdir.

Mingəçevirdə ümumən antik dövrün müxtəlif zamanlarında

---

[2]Асланов, Г., Ваидов Р., Ионе Г. Древний Мингечаур (эпоха энеолита и бронзы) / Г.Асланов, Р.Ваидов, Г.Ионе. – Баку. – 1959. – с. 48

yaranmış üç növ torpaq qəbri üzə çıxarılmışdır. İddiaçı tərəfindən isə antik dövrün dörd növ dəfn növü müəyyənləşdirilmişdir. Bunlar aşağıdakılardır:

- cəsədin tam boyda kürək üstə olan, skeleti az və ya çox bükülü olan torpaq qəbirləri;
- küp qəbirlər;
- taxta qutu qəbirləri;
- katakomba, habelə küp və taxtaqutu qəbirlərinin elementləri ilə qarışıq katakomba məzarları.

Mingəçevir bölgəsində tam boyda, kürək üstə uzanan cəsədli birinci növ torpaq qəbirlərin e.ə. VII-IV əsrlərdə meydana gəldiyi, yəni albanlardan əvvəl, yaxud da ilk alban dövrünə aid olduğu müəyyən edilmişdir.

Torpaq qəbirlərinin ikinci qrupunu e.ə. IV - III əsrlərə aid edilən az bükülmüş skeletli torpaq məzarları təşkil edir. S.Qazıyev bu cür dəfn yerlərini Əhəmənilər dövrünə aid edir.[3] C.Ə.Xəlilovun fikrincə isə, Mingəçevirdəki az bükülmüş skeletli qəbirlər daha erkən dövrlərə aid olan çox bükülü skeletli torpaq məzarlarının ənənəsini davam etdirir. Q.Qoşqarlı isə həmin qəbirlərə maraqlı tarixi yozum verir.

Mingəçevirdə tapılmış arxası üstə, tam boyda uzanan cəsədli torpaq qəbirləri yerli mənəvi və maddi mədəniyyəti qavrayan skiflərlə bağlı idi. Belə bükülü dəfn Cənubi Qafqazın avtoxton əhalisi üçün də ənənəvi hal almışdır.

Mingəçevirin ikinci qrup torpaq qəbirlərində aşkar olunan və hazırda MATM-ın fondlarında saxlanılan arxeoloji materialları S.Qazıyev, R.Vahidov, O.İsmizadə, Q.Aslanov, T.Qolubkina, M.Bakuşev, C.Xəlilov, İ.Babayev, Q.Qoşqarlı, S.Aşurov, A.Abdullayeva və b. e.ə. V - III əsrlərə aid ediblər.

Bu cür qəbirlər Yaloylutəpə, Şamaxı, Qəbələ, Nüydidə Torpaqqalada, Canaharda (Xaçmaz rayonu), Bərdədəki Şortəpə abidəsində, Yevlax

---

[3]Казиев С. Археологические раскопки в Мингечауре // Материальная культура Азербайджана. Том 1 / С. Казиев. – Баку: – 1949. – с.33,40.

rayonunun Nərimankənd kəndi yaxınlığında, Ağstafa rayonunun Qıraq Kəsəmən kəndi ətrafında, Qarabağ ovalığında, yaşayış antik dövr Qalatəpə məskənində, Dağıstanın Tərki və Qarabulaqkənd məntəqələrində də tapılmışdır.

Qədim Mingəçevir bölgəsində tədqiq edilən Antik dövr torpaq qəbirlərinin üçüncü qrupuna e.ə. III əsr e. IV əsrə aid edilən çox büküklü skeletli qəbirlər daxildir. Onlara qədim Azərbaycan Albaniyasının bütün tarixi hüdudlarında və ümumiyyətlə, Cənubi Qafqazın ərazisində rast gəlinir. Bu növ torpaq qəbir, yəni çox büküklü skeletli məzar ilk dəfə 1915-ci ildə Qəbələ rayonunun Nic kəndində aşkar olunub tədqiq edilmişdir. Antik dövrün bu növ qəbirləri Azərbaycanın az qala bütün ərazisində – Ağdam, Bərdə, Ağcabədi, Ağstafa, Ağsu, Astara, Beyləqan, Qəbələ, Qazax, Göranboy, Göyçay, Göygöl, Qobustan, Quba, Cəlilabad, Yevlax, İsmayıllı, Lənkəran, Lerik, Yardımlı, Masallı, Neftçala, Saatlı, Sabirabad, Salyan, Samux,[4] Füzuli, Xaçmaz, Xızı, Şəki və Naxçıvan Muxtar Respublikasında vardır. Belə tapıntılar qədim Azərbaycan dövləti olan Albaniya ərazisində antik dövrdə yerli ənənələr üzərində qurulmuş və antik dünya ilə sıx ünsiyyət saxlayan vahid özünəməxsus mədəniyyətin mövcudluğunu bildirir.

Üçüncü fəslin **"Küp qəbirlər"** adlı ikinci paraqrafında belə qəbirlərin yaranması və yayılması tarixi işıqlandırılmışdır. Bu dəfn ayini e.ə. IV-III əsrlərdə Misirdə və Mesopotamiyada, e.ə. III-II minilliklərdə Ön Asiya, İran, Yunanıstan, Krit adası, İtaliya, İspaniya və Qafqaz xalqlarında mövcud olmuşdur. 1985-ci ildə arxeoloq İ.Nərimanov Azərbaycanın ərazisində ilk dəfə son eneolit dövrünə aid olan Leylatəpə abidəsini öyrənmişdir. O, həmçinin e.ə. IV minilliyə aid küp qəbirləri tədqiq etmişdir.[5]

Son iyirmi ildə Azərbaycan ərazisində oxşar abidələrin tapılması

---

[4]Məmmədov A.M. Samux mahalının tarixi-arxeoloji tədqiqinə dair / A.M.Məmmədov. – Bakı: Elm, – 2000.

[5]Алиев Н., Нариманов И. Культура Северного Азербайджана в эпоху позднего энеолита / Н.Алиев, И.Нариманов. – Бак: – 2001.

analoji arxeoloji abidələrin sayını artırmışdır. Arxeoloq N.Müseyibli Leylatəpədə Qala yeri ərazisində aşkar olunan orta ölçülü küp qəbirlərdə heç bir əşya qoyulmadan dəfn etmə ayinini eneolit dövrünə aid etmişdir.[6] Saxsı qablarda olan dəfn yerləri, əsasən, evin döşəməsi altında, bəzən isə ətrafında tapılmışdır.

Neolit və ilk tunc dövrünün buna oxşar küp qəbirləri həmçinin İranda (Təpə-Sialk) və Yunanıstanda qeydə alınmışdır. Həmin abidələrdə ev döşəmələrinin altında küpdə basdırılan uşaq cəsədləri tapılmışdır. E.İsgəndərovun fikrincə, son eneolit dövrünün saxsı qab qəbirlərinin antik dövrün küp qəbirlərinə heç bir aidiyyəti yoxdur. Müasir Azərbaycanın ərazisində küp qəbirlərin yayılma hüdudları antik dövrün öyrənilməsinin ən mühüm məsələlərindəndir.

Müəllifin qənaətinə əsasən küp qəbirlərdə aşkarlanmış çoxsaylı arxeoloji artefaktlar və orada aşkarlanan əşyaların müqayisəli tipoloji təhlili, habelə stratiqrafiyası bu növ qəbirlərin ən erkən Azərbaycanın cənub rayonlarında yarandığını deməyə imkan verir. Həmin abidələr küp qəbirlərinin Azərbaycan Albaniyası ərazisinə 1930-1970-ci illərdəki fikirlərə rəğmən İberiyadan deyil, əksinə, ölkənin cənub hüdudları vasitəsilə gəldiyinə, yəni İranın şimalından yayılmağa başladığına dəlalət edir. Həmin adət qədim Azərbaycan dövləti olan Albaniyanın ən geniş yayılmış dəfn növünə və ayininə çevrilmişdir.

Mil düzü və Mingəçevir şəhər yerində aşkar olunan yeni analoji qəbir abidələri və müasir artefaktlar küp qəbirlərin müasir Azərbaycan ərazisinə nüfuz etməsini e.ə. VI-V əsrlərə, Salyanda aparılan tədqiqatları isə bir qədər əvvələ aid etməyə imkan verir. Belə dəfn mərasimi eramızın VIII əsrinə, yəni ərəb istilasına qədər geniş həyata keçirilirdi.

1935-1953-cü illərdə Mingəçevir ərazisində aparılmış arxeoloji qazıntılar zamanı içərisində müxtəlif əşyalar olan üç yüzdən çox küp qəbir çıxarılmışdır. Belə tapıntılar qonşu Dağıstan, Gürcüstan və Ermənistanda aşkar olunan dəfn yerlərindən fərqlidir.

---

[6]Müseyibli N. Leylatəpə mədəniyyətinin qəbir abidələri və dəfn adətləri / N.Müseyibli. – Bakı: – 2014. – 140 s.

Antik Mingəçevir şəhərinin küp qəbirləri müəyyən sapmalar istisna olmaqla şimal-qərbdən cənub-şərqə səmtlənir. Kürün sağ sahildə yerləşən ən erkən qəbirlər e.ə. III - I əsrlərə, sol sahillərdəki son məzarlar isə e.ə. I əsr – e. IV əsrinə aid edilir.

1974-cü ildə Mil düzündə, Ağcabədi rayonunun Qaraköpəktəpə yerində, 2011-ci ildə Salyanda tapılan küp qəbirləri isə Mingəçevir qəbirlərindən daha qədimdir.

Antik dövr və erkən orta əsrlərə aid dəfn növlərinə Azərbaycanın az qala bütün bölgələrində, həm dağ və dağətəyi yerlərdə, həm də Kür-Araz ovalığında rast gəlinir. Son illərdə Azərbaycanın ərazisində 129-dan çox küp qəbirlərdən ibarət nekropollar üzə çıxarılaraq tədqiq edilmişdir.

Üçüncü fəslin **“Taxta qutu qəbirlər”** adlı üçüncü paraqrafında Kür çayının sol sahilində, antik Mingəçevir şəhərinin 3 saylı məskənində aşkar olunmuş qəbirlər barədə məlumat verilmişdir.

Cənubi Qafqazda da buna bənzər qutu qəbirlərin aşkarlandığının vurğulandığı bu bölmədə 1947-ci ildə arxeoloq R.Vahidovun Sudağılan yaşayış yerində qarışıq taxta qutu tipli qəbirlər aşkar etdiyi, qəbirlərdə olan sikkələrin eramızın I-III əsrlərinə aid olduğu barədə qənaətlər əksini tapmışdır. Sikkələr üzərindəki dəliklərin onlardan bəzək əşyaları qismində də istifadə olunduğunu deməyə əsas vermişdir. Həmin sikkələrin mübadilə dövrünü nəzərə alan Q.Aslanov və K.Trever taxta qutu qəbirləri eramızın II-III əsrlərinə aid etməyi mümkün sayaraq, sonra onların katakomba qəbirləri ilə eyni dövrə aid olması qənaətinə gəlmişlər. S.Qazıyev cənazənin və əşyaların yerləşdirilməsinə əsaslanıb onları digər qəbir növləri ilə müqayisə edərək Mingəçevirin taxta qutu qəbirlərini də eramızın II-III əsrlərə aid etmişdir. Y.A.Paxomovun fikrincə, taxta qutu qəbirlərdə tapılan sikkələr eramızın I əsrinin birinci rübü–III əsrin əvvəllərinə aiddir.

Mingəçevirdə 22 taxta qutu qəbri aşkar olunaraq araşdırılmışdır. Belə qəbirlərin əksəriyyəti cüt dəfnlidir. Tək dəfnli qəbirlər isə azdır. Qeyd edilməlidir ki, taxta qutu qəbirlər ilə yanaşı Mingəçevirdə küp qəbirlər və erkən katakomba qəbirləri də vardır. Bu, Mingəçevirə tez-tez

Şimali Qafqaz tayfalarının gəldiyinə dəlalət edir. Eramızın I-III əsrlərində bu ərazidə sarmat-alan tipli katakomba qəbirlərinin peyda olması da məhz bununla bağlıdır. Taxta qutu qəbirlər Azərbaycan ərazisində yalnız Mingəçevirin Sudağılan yerində, həmçinin Ağdaş rayonunun Əmirarx məzarlığında aşkarlanmışdır.

Üçüncü fəslin **"Mingəçevirin katakomba qəbirləri və onların müxtəlif tipləri"** adlı dördüncü paraqrafında Azərbaycan Albaniyasında meydana gələn yeni dəfn yerləri olan katakomba qəbirlərindən bəhs edilir. Onlar Mingəçevirdə, Qəbələdə, Torpaqqalada (Qax rayonu), Azərbaycanın Qazax rayonunda, həmçinin Dağıstanın Sırt-Palas yaşayış yerində qeydə alınmışdır.[7] Antik Mingəçevirin qəbir abidələrində 200-dən çox katakomba qəbir aşkar olunaraq öyrənilmişdir. Xronoloji və növ mənsubiyyətinə görə belə tapıntılar iki qrupa: erkən və son qəbirlərə ayrılır.

Birinci dövr qəbirləri eramızın I-III əsrlərinə aiddir. Tədqiq edilən dövrün katakomba qəbirləri kameraların quruluşuna görə az qala eynidir. İşıq düşən yer səthindən 3x6 metr dərinliyində salınan günbəz, ellips formalı, yaxud dairəvi tikililərin diametri 1,5-3, hündürlüyü 0,9-1,7 metrdir.[8] Erkən dövrün katakombaları tək kameralı idi. Bəzən az da olsa, iki kameralı katakombalar da var idi. Bu qəbirlərin girişi xəndək tipli keçidlərdən ibarət idi. Araşdırma zamanı katakombaların inşasının uzunluğu 2-4 m, eni 0,6-1,1 m olan xəndəyin qazılması ilə başlandığı məlum olmuşdur.

Kameraların kənarları şaquli, döşəməsi maili şəkildə hazırlanırdı. Xəndəyin önündə, yuxarı hissəsində aşağıya doğru bir neçə pillə düzəldilirdi, aşağı hissəsində isə eni 30 - 60 sm, uzunluğu 1 m 10 sm – 1 m 70 sm ölçüdə düzbucaqlı, yaxud oval şəkilli giriş qapısı açılırdı.

Antropoloq R.Qasımova Mingəçevirdə aşkar olunan 200 qəbirdə

---

[7]Котович, В. Новые археологические памятники Южного Дагестана, том 1 / В.Котович. – Махачкала: – 1959. – с. 148-158.

[8]Асланов, Г.К изучению раннесредневековых памятников Мингечаура // КСИИМК, АН СССР, выпуск № 60 / Г.Асланов. – Москва: – 1953. – с. 65-66.

dörd növ (torpaq, küp, taxta qutu, katakomba) qəbirdən tapılan kəllələri tədqiq etmişdir. Ümumiyyətlə, uzunbaşlı, darsifətli bu kəllələr bir-birinə bənzəyirdi. Onlar e.ə. VIII-V əsrlərə aid əvvəlki dövrlərin kəllələrindən fərqlənir. R.Qasımova e.ə. IV əsr e. III əsrlərdə Cənubi Qafqaz əhalisinin daha çox erkən dövrü, e.ə. XIII-IX əsrlərinin əhalisinə, Aşağı Volqaboyu bölgəsinin sarmat tayfalarına oxşadığı qənaətinə gəlmişdir.

Mingəçevirin eramızın IV əsrinin ikinci yarısı VIII əsrə aid katakomba qəbirləri alan, hun, sarmat qəbilələrinə aid idi. Azərbaycanın ərazisində katakomba qəbirləri və onların yayılma tarixi İ.Əliyev, Q.Aslanov, R.Vahidov, İ.Nərimanov, C.Xəlilov, İ.Babayev, V.Əliyev, Q.Qoşqarlı və başqa alimlərin elmi əsərlərində əksini tapmışdır. Müxtəlif tipli dəfn abidələrinin təhlili Albaniyada ayrı-ayrı, maddi mədəniyyətinə görə yaxın və etnik cəhətdən qohum icmaların yaşadığını göstərir.

Ümumiyyətlə, katakomba qəbirləri Mingəçevirin Sudağılan və Kalaget yaşayış yerlərində, Qax rayonunun Torpaqqala və Qazax rayonunun Babadərviş məskənlərində aşkar olunmuşdur.

**"Mingəçevirin arxeoloji materialları və onların təhlili"** adlı dördüncü fəsildə qədim Mingəçevirin (Samunidanın) antik dövrünə aid mədəni təbəqələrində aparılan arxeoloji işlər zamanı aşkar olunan keramika məmulatı tədqiq edilmişdir. Dördüncü fəsil yeddi paraqrafdan ibarətdir.

Dördüncü fəslin **"Keramika məmulatlarının tipoloji təsnifatı"** adlı birinci paraqrafı 3 bənddən ibarətdir. Bu paraqrafda Mingəçevirin müxtəlif vaxtlara aid olan torpaq, küp, taxta qutu və katakomba qəbirlərində tapılmış saxsı məmulatları tədqiq edilmişdir. Azərbaycanda dulusçuluq işində tətbiq edilən 50-yə yaxın keramika və bentonit gil yataqları bəllidir.

Nəzərdən keçirdiyimiz dövrdə qədim Mingəçevir abidələrinin mədəni təbəqələrində aşkar olunan maddi məmulatlar arasında müxtəlif dövrlərə aid olan torpaq, küp, taxta qutu və katakomba məzarlıqlarında tapılmış keramika nümunələrinin xüsusi yer tutduğu bildirilir. Aşkar olunan keramika nümunələri təkcə qədim Mingəçevirdə dulusçuluq

sənətinin yüksək inkişaf səviyyəsinə dəlalət etmir, həm də bu şəhərin antik dövrün digər xalqları ilə ticarət və mədəni əlaqələrindən xəbər verir. Dissertasiya işində keramika məmulatlarının dörd qrupu: məişət, təsərrüfat əşyaları, bədii işlər və tikinti materialları ciddi araşdırmaya cəlb edilmişdir.

Dördüncü fəslin **"Məişət keramikası"** adlı birinci paraqrafın birinci bəndində məişət keramikasının ən yayılmış növü olan dibçək tipli qablardan bəhs olunur. Tədqiqatlar göstərir ki, dibçəklərin forması və hazırlanması üsulu ta qədimdən dəyişməz olaraq qalmışdır. Antik dövr qablarında əyilmiş qırağı olan geniş ləçək, alçaq boğazlıq, kürə gövdəsi və yastı oturacaq vardır. Təsvir olunan bütün məmulatlar arasında Mingəçevirin Kür çayının sağ sahilində yerləşən məzarlığındakı qablar xüsusilə diqqəti çəkir. Məmulatların üzərində gövdəsinin çevrəsinə qırmızı boya və oxra ilə üfüqi xətlər çəkilmişdir. Bundan əlavə, 2011-ci ildə Qalatəpədə (Ağcabədi) qazan şəkilli qablar da tapılmışdır.

Yekunda bu cür əşyaların xüsusiyyətlərinə, tətbiqinə və dini təyinatına dair fikirlər söylənilmişdir.

**"Kasa tipli qablar"** adlı ikinci paraqrafın ikincı bəndində Mingəçevirdə aşkar olunan kasa tipli (yarımkürə, yaxud yastılı, qulaqcıqlı qulplu) müxtəlif qablar nəzərdən keçirilir və Azərbaycanda tapılan və e.ə. V əsrin sonuna aid analoji əşyaların xassələri sadalanır.

**"Təsərrüfat keramikası"** adlı üçüncü paraqrafın üçüncü bəndində bu qrupa daxil olan müxtəlif tapıntılar – sərnic, süd qabı, küp, nehrə, kuzə, heyvan və insan şəklində qablar, adam, heyvan və quşların terrakota heykəlcikləri tədqiq edilmişdir. Mingəçevirin keramika məmulatının əsas qruplarının təsnifatı və təhlili müxtəlif növlü və istehsalının qeyri-sabit olduğuna dəlalət edir. Bu hal, əsasən, ölkə ərazisində bərabər şəkildə inkişaf etməyən istehsal münasibətlərinin mahiyyəti və səviyyəsindən əmələ gəlir. Albaniyanın mərkəzi bölgələrində dulusçuluq işinin inkişaf səviyyəsinin ucqar yerlərin istehsalatında daha yüksək olduğu bildirilir.

Kür çayının sağ və sol sahillərində yerləşən məskən və məzarlıqlarda

aşkarlanan arxeoloji məmulatlar, şüşə və metal qablar, həmçinin bəzək əşyaları demək olar ki, eynidir. Bu Azərbaycan Albaniyasının şimalda Cənubi Dağıstandan cənubda Araz çayına qədər sahib olduğu torpaqlarında vahid maddi mədəniyyətin yayıldığını isbatlayır. Beləliklə, antik Mingəçevirdə sənət məmulatlarının təkmilləşdirilməsi başqa ölkələrlə sıx ticarət əlaqələri ilə izah olunur.

Dördüncü fəslin **"Şüşə məmulatının istehsalı"** adlı ikinci paraqrafında Mingəçevirdə aşkar olunan müxtəlif formalı və təyinatlı şüşə əşyalar tədqiq edilmişdir. Tarixi Azərbaycanın şimal bölgələrində şüşə məmulatlarının istehsalına e.ə. II minilliyin sonu – I minilliyin əvvəlində başlanıldığı qeyd edilir. Mingəçevir, Xoşbulaq, Şəmkir və Cəlilabadın torpaq və kurqan qəbirlərində tapılmış ilk şüşə məmulatı olan muncuqların Xocalı-Gədəbəy mədəniyyətinə aid edildiyi bildirilir. Müəllifin fikrincə, bu cür bəzək əşyalarının düzəldilməsi çoxlu vaxt aparan, mürəkkəb texniki biliklərə yiyələnməyi tələb edən iş idi.

Şüşə əşyalar beş qrupa – məlhəm qabı, flakon, qədəh, kuzə və camlara ayırmışdır. Antik Mingəçevirin müxtəlif məzarlıqlarında aşkar olunan şüşə məmulatının əksər hissəsi əvvəllər idxal olunmuş sayılırdı. Lakin əslində hansı əşyanın gətirildiyi, hansının isə burada hazırlandığını dəqiq müəyyən etmək çətindir və bu məsələ həllini tapmamış qalır.

E.ə. I əsrdən başlayaraq antik dövrün küp qəbirlərində şüşə məmulatına tez-tez rast gəlinir. Qədim Mingəçevirin küp, torpaq, taxta qutu və katakomba qəbirlərində müxtəlif şüşə əşyalar aşkarlanmışdır.

Beləliklə, yuxarıda qeyd edilənləri nəzərə alaraq, antik dövr Azərbaycan Albaniyasının şüşə məmulatlarının istehsalını e.ə. I əsr – e. I əsrinə aid etmək olar.

Dördüncü fəslin **"Antik Mingəçevirin silahları"** adlı üçüncü paraqrafında qədim Mingəçevirin məzarlıqlarında tapılmış müxtəlif silahlar (saxsı ox ucları, dəmir və bürünc silahlar: cida, bıçaq, dəhrə, qılınc, xəncər, yaba və s.) tədqiq edilir. Artefaktlara və tarixi mənbələrə istinadən Qafqaz Albaniyasının əhalisi, o cümlədən antik Mingəçevir (Samunida) şəhərinin sakinlərinin dəmirçilik peşəsinə, qaynaqlama,

lehimləmə işinə yiyələndiyi, qırmanı lehimləməyi bacardığını əminliklə söyləmək olar. Alban dövlətinin dəmir, mis və digər metallara tələbatı bu yolla təmin edilirdi. Arxeoloji qazıntılar zamanı aşkarlanmış göstərilən silah növləri antik dövr Azərbaycan Albaniyasının süvari və piyada qoşunundan ibarət orduya malik olduğunu təsdiqləyir.

Dördüncü fəslin **“Antik Mingəçevirin bəzək əşyaları”** adlı dördüncü paraqrafında qədim Mingəçevirdə aşkərlanan müxtəlif tipli bəzək əşyalardan bəhz edilir.

**“Baş bəzəkləri”** adlı beşinci paraqrafda antik Mingəçevirin abidələrində aparılan arxeoloji qazıntılar zamanı aşkar olunan bəzək əşyalarının (bilərzik, qaşlı, qaşsız üzüklər, irili, xırdalı sancaqlar, toqqalar, piləklər və s.) əsas hissəsi nəzərdən keçirilmişdir. Antik Mingəçevirin qəbir abidələrində torpaq, küp, taxta qutu və katakomba qəbirlərində tapılan bəzək əşyaları Qəbələ, Bərdə, Salyan, Xınıslı, İsmayıllı, Qarabağ ovalığı və başqa məntəqələrin məzarlıqlarında aşkarlanmış nümunələrə bənzəyir.

Müəllif dörd qrupa bölünən sırğaları və iki qrupa ayrılan diademaları tədqiq etmişdir. Birinci qrupa alın üstünə taxılmaq və boyundan asılmaq üçün yastı və oval formalı metaldan zolaq şəklində düzəldilən lent və bilərzik tipli diademalar aiddir. Bu əşyaların orta hissəsi enli, ucları isə ensizdir. Uclarında bağ iplərini keçirmək məqsədilə girdə dəliklər açılmışdır. Diademaların üz tərəfinə bəzən naxış çəkilirdi. İkinci qrupa isə muncuq, pilək, düymə və bürünc üstlüklərin yığımından düzəldilən diademalar aiddir. Qızıl sırğalar Mingəçevir, Yaloylutəpə, Xınıslı, Qalagah, Şatırlıda və başqa məskənlərdə keçirilən tədqiqat işləri zamanı aşkarlanmışdır. Mingəçevirin 5 saylı kurqanında tapılan sırğaların ən qədim nümunəsi tunc dövrünə aiddir.

Diadema ilə birlikdə aşkar olunan əşyalar həmin qəbirdə alban cəmiyyətinin kübar nəslinə məxsus dövlət nümayəndəsi basdırıldığına işarə edir.[9] Belə arxeoloji tapıntılar qəbirdə basdırılan şəxsin sosial statusu barədə məlumatlar toplamağa imkan yaradır.

---

[9]Ахундова, Г. Украшения Кавказской Албании (IV до н.э. – III в. н.э.), Автореф. Дисс. канд. ист. наук / Г.Ахундова. – Баку: – 1999. – с. 7.

Dördüncü fəslin **"Qol və ayaq bəzəkləri"** adlı altıncı paraqrafında metal və keramik bilərziklər, həmçinin forma və işlənmə materialı ilə fərqlənən qaşlı-qaşsız üzük, gemma, asma, bürünc zınqırov, muncuq, toqqa və başqa əşyalar cəlb edilmişdir. Onların dini və ideoloji mahiyyəti açılmış, habelə antik Azərbaycanın Şimali Qara dəniz hövzəsi şəhərləri, Parfiya, Roma, Mesopotamiya, Misir, Hindistan, Suriya və başqa ölkələrlə mədəni-iqtisadi və siyasi əlaqələrin yayılmasındakı əhəmiyyəti əks etdirilmişdir.[10] Geniş beynəlxalq əlaqələr nəticəsində Azərbaycanda gətirilmə bəzək əşyaları yayılmışdı. Onlar Mingəçevir, Yaloylutəpə, Nüydi, Xınıslı, Mollaisaqlı və digər antik məskənlərdə aşkar olunmuşdur.

Dördüncü fəslin **"Antik sikkələr"** adlı yeddinci paraqrafında Mingəçevir su anbarı ərazisində aşkarlanmış sikkələr araşdırılmışdır. Belə tapıntılar əsasında ölkədə zərb edilən sikkələr, habelə Şimali Qafqazın antik dövr və orta əsr pul dövriyyəsinin icmalı verilmiş, müvafiq qənaətlərə gəlinmişdir. E.ə. IV əsrdən başlayaraq beynəlxalq ticarətin inkişafı nəticəsində Azərbaycana əcnəbi sikkələr: Makedoniyalı İsgəndərin tetradrahmaları və drahmaları daxil olmuşdur. Makedoniyalı İsgəndərin sikkələri Bərdə, Xınıslı, Qəbələdə tapılmışdır. İqtisadi və sosial inkişafa malik Albaniyaya gətirilmə pulların nüfuz etməsi onun antik dünya ölkələri ilə olan yüksək səviyyəli ticarət və mədəni əlaqələrini büruzə verir.

Dissertasiyada aparılan tədqiqatlar "Nəticə"də ümumiləşdirilmişdir.

**Tədqiqat işi aşağıdakı nəticələrlə yekunlaşır:**

Tədqiqat işində Mingəçevirin coğrafi mövqeyi, antik və orta əsr müəlliflərinin Azərbaycan Albaniyasının antik şəhərlərinə dair məlumatları, 1946-1953-cü illərdə Kür çayının hər iki sahilində aparılmış arxeoloji işlərin nəticələri ümumiləşdirilmişdir (6).

Dissertasiya işində aşağıdakı məsələlər həllini tapmışdır:

- Kənd və şəhərin fərqli cəhətləri müəyyənləşdirilmiş, tikinti

[10]Османов, Ф. История и культура Кавказской Албании IV в. до н. э. – III в. н. э. / Ф.Османов. – Баку: Тахсил, – 2006.

materiallarının – kirəmit və kərpiclərin, bişmiş və çiy kərpicin, Mingəçevir ərazisindəki inşaat növlərinin kənd və şəhər mədəniyyəti üçün səciyyəvi olduğu göstərilmiş, şəhər infrastrukturunu xarakterizə edən – dulus sobaları və onların təsnifatı sistemləşdirilərək təhlil edilmişdir (13);

- Antik dövrdə Mingəçevirdə torpaq, küp, taxta-qutu, katakomba və qarışıq katakomba qəbirlərin olduğu müəyyən edilmiş, onların təsviri verilmiş, dəfn etmə adətindən bəhs edilmişdir. Müəyyən edilmişdir ki, bu dövrün qəbirlərin növləri quruluşuna görə bir-birindən fərqlənirlər. Bunun başlıca səbəblərindən biri də qədim Mingəçevir ərazisində Qara dənizin sahilindən və Şərq ölkələrindən köçən bir çox etnik qrupların yaşaması ilə bağlı olmuşdur (12; 15).
- Keramika məmulatının, müxtəlif məişət əşyaları, silah və sikkələrin tədqiqi Mingəçevir şəhərində müxtəlif sənət sahələrinin inkişaf etdiyini, Yaxın Şərq ölkələri ilə qarşılıqlı iqtisadi mədəni əlaqələrin olduğunu göstərir (18).

Tədqiqat işi nəticəsində əldə olunan qənaətlər sırasında həm də Mingəçevirdə aşkarlanan arxeoloji tapıntıların Azərbaycanda və ümumilikdə Cənubi Qafqazın müxtəlif məkanlarında aşkarlandığı qeyd edilmişdir.

Tədqiqat zamanı əldə olunan elmi nəticələr e.ə. IV – e. IV əsrləri arasında Mingəçevir ərazisində şəhər mədəniyyətinə xas elementlərin olduğunu, şəhər həyatının və urbanizasiyanın əlamətlərinin müşahidə edildiyini, antik şəhərin genişlənməsinin müxtəlif etnik qrupların və miqrasiyaların da müəyyən rol oynadığını qeyd etməyə əsas verir. Güclü infrastruktur quruculuğunun inkişafı və digər səbəblər (təbiət hadisələri və s.) qədim Mingəçevir əhalisinin Kür çayının sağ sahilindən sol sahilinə köçməsinə səbəb olmuşdur. Əldə olunan arxeoloji faktlar və elmi nəticələrə əsasən qədim Samunida şəhərinin qalıqları üzərində ilk orta əsrlərdə Şəhərburun adlı şəhərcik meydana gəlmişdir.Mingəçevir şəhərinin müvafiq dövrdə Böyük İpək Yolu üzərində yerləşməsi onun sosial-iqtisadi inkişafına təsirini göstərmişdir.

**Dissertasiya mövzusunun bütün yekunları və nəticələri aşağıdakı tezis və məqalələrdə öz əksini tapmışdır:**

1. Античный город Мингечаур-Самунис по материалам археологических исследований // – Bakı: Milli Azərbaycan Tarixi Muzeyi, – 2012. – s. 262-269.
2. Значение археологических коллекций Национального Музея Истории Азербайджана, выявленных в Мингечауре в 30-50-х гг. XX века и ее роль в изучение и пропаганде истории Азербайджана эпохи античности // "Azərbaycan tarixinin öyrənilməsində muzeylərin rolu" mövzusunda II Respublika elmi konfransının materialları, – Bakı: – 18 iyun, – 2012, – s. 130-134.
3. Этапы историко-культурного развития Мингечаура (Самуниса) в античный период // "Azərbaycanın qədim və orta əsr şəhərlərinin mədəniyyəti" mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları, – Qəbələ: – 06-10 noyabr, – 2012. – s. 96-97.
4. Археологические находки из кувшинных погребений древнего Самуниса (Мингечаура) как источник изучения истории Азербайджана в эпоху античности // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 90 illiyinə həsr olunmuş "Azərbaycan tarixinin öyrənilməsində muzeylərin rolu və problemləri" adlı III respublika elmi konfransının materialları, – Bakı: – 18-19 aprel, – 2013, – s. 182-186.
5. Археологические материалы из Мингечаура как источники изучения античного города Самунис Азербайджанской Албании (по археологическим материалам НМИА) // "Azərbaycan tarixinin öyrənilməsində muzeylərin rolu və problemləri" adlı IV respublika elmi konfransının materialları, – Bakı: – 19 iyun, – 2014, – s. 122-127.
6. Оружие из античных могил Самуниса (Мингечевира) (на основе коллекции НМИА) // – Bakı: Milli Azərbaycan Tarixi Muzeyi, – 2014. – s. 312-319.

7. Археологические материалы из Ялойлутепе, как исторический источник в изучении производства керамических изделий Самуниса (Мингечаура) в период античности (на основе коллекции Национального Музея истории Азербайджана) // AMEA Milli Azərbaycan Tarixi Muzeyində D.Şərifovun anadan olmasının 130-cu ildönümü münasibətilə "Azərbaycan tarixinin öyrənilməsində muzeylərin rolu" V Respublika elmi konfransının materialları. – Bakı: – 07 iyun, –2015, – s. 269-278.
8. О месте расположения античного города Азербайджанской Албании Самуниса (Мингечаура) // Сборник материалов III Международной конференции молодых ученых «Новые материалы и методы аспирантов и молодых учёных». ИАРАН, – Москва: – 19 марта, – 2015, – с. 92-93.
9. Керамическое производство в древнем Самуне-Мингечевире (на основе коллекции НМИА) // – Bakı: Milli Azərbaycan Tarixi Muzeyi, – 2015. – s. 317-327.
10. Источники изучения античных городов Азербайджанской Албании в разрезе мультикультурализма (по материалам НМИА) // Görkəmli tarixçi-alim S.Aşurbəylinin anadan olmasının 110 illik yubileyinə həsr olunmuş "Azərbaycan tarixinin öyrənilməsində muzeylərin rolu" VI Respublika elmi konfransı, – Bakı: – 14 iyun, – 2016, – s. 358-362.
11. Самунис-Мингечевир как один из ведущих античных городов Кавказской Албании с элементами мультикультурализма // Mingəçevir Dövlət Universiteti Ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş "Milli-mədəni irs və onun qloballaşma şəraitində təbliği məsələləri", – Mingəçevir. – 2016. – s. 76-77.
12. Статистические данные о ходе раскопок археологического комплекса в Мингечауре в 1946-1953 гг. (на основе коллекции НМИА) // – Bakı: Milli Azərbaycan Tarixi Muzeyi, – 2017. – s. 100-108. (həmmüəllif).

13. Срубные погребения древнего Самуниса-Мингечаура // Киев: «Гілея: науковий вісник». – 2017. Вип. 127 (12), – с. 113-116.
14. Погребальные памятники античного Самуниса-Мингечаура // "Muzey, arxiv və kitabxanalarda mühafizə edilən milli dəyərlərin tədqiqi, təbliği, qorunması və bərpası", "muzeylərdə elmi, fond və ekspozisiya işində milli dəyərlərin yeri". I Respublika elmi konfransı, – Bakı: – 20 iyun,– 2017, – s. 175-178.
15. Грунтовые погребения древнего Самуниса-Мингечевира // – Bakı: AMEA Azərbaycan Arxeologiyası və Etnoqrafiyası, – 2017. №1, – s. 16-31.
16. Стеклянные производство древнего Мингечевира (Самуниса) // Журнал Современные гуманитарные исследования. Импакт-фактор (РИНЦ), – Москва: – 2018. №6 (85), – с. 53-59.
17. Влияние тюркских элементов на материальную культуру Азербайджанской Албании в античный период // Международная Тюркская Академия. Материалы IV Форума Гуманитарных Наук «ВЕЛИКАЯ СТЕПЬ», часть (II), – Казахстан: – НУР-СУЛТАН. – 24 июня, 2019. – с. 262-268.
18. Azərbaycanın qədim və orta əsr silahları // Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 100-cü ildönümünə həsr olunmuş kitab-albom. Milli Azərbaycan Tarixi Muzeyinin arxeologiya materialları kolleksiyasında, – Bakı, – 2018, – 31 s. (həmmüəllif).
19. Роль национального музея истории Азербайджана в деле изучения античного города Азербайджанской Албании Мингечевир // Киевский национальный университет им. Т. Шевченко, факультета истории, кафедра археологии и музееведения центр палеоэтнологических исследований им. Х. Вовка. Международная научная конференция «Археология и музеология в образовании и исследованиях» по случаю 75-летия отделения археологии и музееведения, – Киев: – 24-25 октября, – 2019, – с. 66-67.

20. Отношение Азербайджанской Албании с Иберией в период античности по археологическим материалам Мингечевира // Тбилисский государственный университет им. Ив. Джавахишвили Институт Кавказоведения факультета гуманитарных наук. V Международный Конгресс Кавказоведов. Конференция «Грузия в культурно-цивилизационном контексте Кавказа (История, Современность и перспективы)». Материалы V Международного Конгресса кавказоведов, – Тбилиси: – 04-07 ноября, – 2019, – с. 131-132. (həmmüəllif).
21. Археологические материалы Мингечевира как источник популяризации исторической науки // Историческое значение и преподование истории в контексте эволюции национального самосознания. Материалы международной научной конференции, – Москва: – 2021. – с. 146-149.

Dissertasiyanın müdafiəsi 22 oktyabr 2021-ci il tarixdə saat $14^{00}$ AMEA Naxçıvan Bölməsi nəzdində fəaliyyət göstərən ED 1.13 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 7000, Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 76, AMEA Naxçıvan Bölməsi, əsas bina, I mərtəbə, akt zalı

Dissertasiya ilə AMEA Naxçıvan Bölməsinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları AMEA Naxçıvan Bölməsinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 17 sentyabr 2021-ci il tarixdə zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 16.09.2021
Kağızın formatı: 60/84, 16/1
Həcm: 47.983
Tiraj: 30